**2 jurnalisti oğurlayıb öldürdül□r**
03.11.13 13:30



Malidə oğurlanan iki fransız jurnalist- Klod Verloni və Qisled Düpon öldürülüb. Silahlılar tərəfindən oğurlanan fransalı jurnalistlər Maliyə öz peşə vəzifələrini yerinə yetirmək üçün getmişdilər. Onlar oğurlanmazdan əvvəl silahlı müxalifətin liderlərindən birindən müsahibə götürüb.

Qeyd edək ki, Malidə vəziyyət 2012-ci ilin sonunda gərginləşib. İslamçılar ölkənin şimalında nəzarəti əllərinə alıb. Hökumət qoşunlarına qarşı döyüşən müxalifət sıralarını getdikcə genişləndirib. Bu ölkədə sabitliyi 4 minə yaxın Fransa hərbçisi qoruyur.